# MÜSTƏQİLLİK İLLƏRİNDƏ ELMİN İNKİŞAFINDA KİTABXANA ELEKTRON-İNFORMASİYA RESURSLARININ ROLU

T.Ə. BAĞIROVA

**Роль библиотечное электронно-информационных ресурсов в развитии науки в годы независимости**
**Резюме:** *В этой статье рассмотрена роль библиотек в современном обществе как часть электронно-информационных ресурсов. Исследую тся некоторые вопросы создания и развитие электронных-информационных ресурсов.*
**Role of library elektron-informationresourcesinthedvelopement of scienceforyears of independence**
**Abstract:** *This paper deal swith the role of libraries in contemporary society as a role of elektron-intormationresources. There have been investigated some problems of creationauddevelopment of elektron-information resources.*

**Açar sözlər:** *Kitabxana, informasiya, texnologiya, elektron kataloq, müstəqillik dövrü, elektron resurslar.*
**Ключевые слова:** *Библиотека, информация, технологии, электронный каталог, период независимости, електронные ресурсы.*
**Keywords:** *Library, information, texnology, electronic cataloque, period of independence, electron resource.*

Azərbaycan elminin inkişafı müstəqillik dövründə sürətli olmuşdur. Xüsusilə elm və təhsil müstəqil Azərbaycan dövlətində strateji xarakterli fəaliyyət sahələrindəndir.Ümummilli lider Heydər Əliyevin və cənab Prezident İlham Əliyevin bu sahələrin inkişafı ilə bağlı qəbul etdikləri qərarlar, dövlət proqramları bunun əyani sübutudur. Müstəqillik illərində Azərbaycanda elmi-texniki potensialı inkişaf etdirmək, elmi tədqiqatları genişləndirmək, mədəniyyəti zənginləşdirmək, milli mənafeyi qorumaq istiqamətlərində Akademiyanın fəliyyət dairəsi xeyli güclənmişdir. Cəmiyyətdə elmin durmadan tərəqqisi, beynəlxalq əməkdaşlığın genişlənməsi, elmin bütün sahələrində yüksək nəticələrin əldə edilməsinə səbəb olur. Azərbaycan alimlərinin əldə etdikləri elmi nailiyyətlər artıq ölkə hüdudlarından çox-çox kənara çıxır və beynəlxalq əhəmiyyət kəsb edir. Azərbaycan elminə və alimlərin yaradıcılığına dünyada maraq daha da artmış və bu da alimlərimizin xarici ölkələrdə tanınmasına və onların nüfuzunun artmasına səbəb olmuşdur. Müstəqillik illərində AMEA-nin fizika-riyaziyyat və texnika elmləri sahəsində çalışan alimlər mühüm nailiyyətlər əldə etmişlər. Cəmiyyətin hər bir üzvünün informasiya tələbatını təmin etmək üçün müasir informasiya texnologiyaları əsasında informasiya infrastukturuna inteqrasiya olunması əsas şərtlərdəndir. Əsas vəzifələri hər bir fərdin məlumat almaq, istifadə etmək hüququnun təmin edilməsi, elektron hökumət, informasiya bazasının yaradılması

və s. aiddir. Prezident İlham Əliyev demişdir: Gənc nəsil informasiya cəmiyyətini yaradan nəsildir. Bizim ölkədə həm elmi potensial mövcuddur, həm də texnoloji nailiyyətlər imkan verir ki, Azərbaycan bu yöndən regionda aparıcı ölkə olsun. Kitabxanalar elm, informasiya müstəqillik dövründə inkişafı sürətli olmuşdur. Kitabxanalar cəmiyyətin inkişafında yaxından iştirak etməli və operativ informasiya ilə təmin etməlidirlər. İnformasiya ilə yüksək səviyyədə təmin olunmuş cəmiyyət inkişafa nail olaraq bəşəriyyət qarşısında duran qlobal problemləri uğurla həll edir. Kitabxanalar elm, informasiya, mədəniyyət, təhsil və tərbiyyə müəssisəsi kimi cap əsərlərini, informasiya daşıyıcılarını sistemli şəkildə mühafizə edir və istifadəsini həyata kecirir. Azərbaycanda kitabxana işinin inkişafını formalaşdıran və informasiyalaşdırma imkanlarının təmin edilməsi dünyada qlobal problemə çevrilən informasiya təminatını ölkəmiz üçün də aktual etmişdir. Elm, mədəniyyət, təhsilin informasiya təminatı (İK) informasiya-kommunikasiya texnologiyalarının xidmətindən fəal istifadə etməklə və elektron məlumat bazalarının yaradılması ilə mümkündür. Eyni zamanda kitabxanaların informasiya sistemləri sürətli internetlə təchiz edilməsi zəruridir. Kitabxana avtomatlaşdırılmış- kitabxana informasiya sistemləri vasitəsilə öz resurslarını dünya informasiya məkanına çıxarır və oxucuların sorğularına çox geniş cavab verir. İnternet kitabxanalara beynəlxalq əlaqələrin qurulması, kitabxanalararası abonementin aparılması işində çox əhəmiyyətli informasiya vasitəsidir.

İnformasiya resurslarının həcmi və onlara tələbat artdıqca kitabxanalara da ehtiyac artacaqdır. İnformasiya texnologiyalarının tətbiqi oxuculara göstərilən xidmətin səviyyəsinin yüksəlməsinə və inkişafına təkan verir. Kitabxana fondları elektron elmi informasiya resurslarla komplektləşdirilməli və inkişaf etdirilməlidir.

Elektron-informasiya resursları ümumiyyətlə cəmiyyətin informasiya ehtiyatlarına tələbat kitabxanaların müasir-modern üsullarla işləməyə sövq edir. Bunun üçün kitabxana öz elektron sənəd fondunu, elektron resurslarını zənginləşdirməli, məlumat bazası yaratmalı, açar sözlər tətbiq edərək elektron məlumatları istifadəçiyə kitabxana binasından kənarda belə çatdırma imkanına malik ola bilər (1, s.4) Böyük informasiya tutumlu maqnit informasiya daşıyıcıları vasitəsilə böyük bir fondun elektron formada qorunub saxlanmasını, xidmət üçün şəraitin və çoxsaylı kadrların olması zərurətinin aradan qaldırılmasını, dünyanın istənilən nöqtəsindən oxucu sorğusuna informasiyanın operativ axtarışını və nəticəni oxucuya çatdırılmasını təmin etmək mümkündür \3, s.58.\Elektron informasiya resursları elektron sənədlərə və elektron nəşrlərə bölünür. Elektron sənəd-maşınla oxunan elektron daşıyıcıya yazılmış sənəddir. Elektron nəşr-müraciət, axtarış və istifadə vasitələri ilə təmin edilmiş istifadəçilərin tanış olması üçün maşınla oxunan daşıyıcıya yazılmış informasiyalardır. (2, s.30) Elektron kataloq bəzi üstünlüklərə malikdir: elektron kataloq lokal və qlobal kompüter şəbəkəsində işləməyə qadir Web texnologiyaya inteqrasiya edə bilən və beynəlxalq format əsasında yaradılan tətbiqi proqram paketidir; biblioqrafik yazıda redaktə işləri aparmaq və onları elektron kataloqdan silmək mümkündür;



informasiyanın digər biblioqrafik verilənlər bazası ilə əvəz edilməsini təmin edir.(4, s.128)Xüsusi format əsasında hazırlanan elektron kataloq aşağıdakıları təmin edir: kompüterdə informasiyanın yazılmasını, verilənlərin daxili strukturunu, biblioqrafik yazını fərqləndirmək və indeksləşdirmək üçün işarə və kodları, kitabxana informasiya işi. Kitabxana işi - elm, informasiya, mədəniyyət təhsil və tərbiyə fəaliyyəti sahəsi kimi kitabxana sisteminin təşkili və inkişafını, kitabxana fondlarının formalaşdırılmasını, hüquqi və fiziki şəxslərə kitabxana – biblioqrafiya və informasiya xidməti, kadrlarin hazırlanması və s. əhatə edən fəaliyyət sahəsidir.

Hazırki dövrdə ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi kitabxana işi siyasəti Azərbaycan kitabxana-informasiya sahəsinin inkişafının əsasını təşkil edir və bu siyasət uğurla davam etdirilir.

Beləliklə, kitabxanalarda avtomatlaşdırılmış kitabxana axtarış informasiya sistemlərini tətbiq etməklə kitabxana elektron informasiya resursları, elektron kataloq yaradılır. Elektron informasiya resursları-elektron məlumatlar (rəqəm, hərf, simvol), elektron proqramlar (məlumatın emalı daxil olmqla müəyyən vəzifələri yerinə yetirən operator qrupları, alt proqramları) və ya onların bir resursda əlaqəli birliyidir (2s.30). Elektron resursların sənəd formalarındakıfərqləndirən xüsusiyyətləri: saxlama müddəti, avtomatlaşmış yaradılma üsulları, operativ mübadilə, axtarış imkanları və səmərəliliyinə görə. Avtomatlaşdırılmış texnologiyada həm ənənəvi informasiya-axtarış dili (məsələn:biblioqrafik təsvirin dili, KBT, UOT və digər sistemləşdirilmiş informasiya-axtarış dili, predmet rubrikalarının dili), həmcinin qeyri-ənənvi informasiya-axtarış dili (məsələn: deskriptor informasiya-axtarış dili, açar sözlərin dili və s.)daxildir(4, s.129).

Qeyd etmək lazımdır ki, kitabxana proseslərinin kompterləşdirilməsiənənvi kataloqların müasir tələblərə uyğun gəlmədiyini göstərir ki, bu da onların yeni – elektron formada (elektron kataloq) işlənməsinizəruriləşdirir.

**Ədəbiyyat:**


1. Əhmədov M. Kitabxanalarımızda informasiya texnologiyalarının tətbiqi onların keyfiyyətcə yeni təsisata cevirəcəkdir //Xalq qəzeti.-2007.-14 mart.
2. Rüstəmov Ə., Mustafayeva N.Elektron kitabxana problemi //Kitabxanaşünaslıq və biblioqrafiya.-2005ş-№2, s.30-40.
3. ДубайС.Рецепты создания электронных ресурсов //Библиотека. - 2007.№5.c.58-61
4.Справочник библиотекаря.–СПБ: Профессия, 2002.- c.448.//Серия"Библиотека"//
5. Xələfov A.A.Heydər Əliyev və Azərbaycanda kitabxana işi.-Bakı:Azərnəşr, 2006.-311s.
6. A.Əliyeva-Kəngərli.Müasirazərbaycanda elmin informasiya təminatı və kitabxanalar.-Bakı:Elm, 2007.-394s.